# ELŞAD SƏFƏRLİNİN "TÜRKANƏ SÖZ"Ü



**Şəddat CƏFƏROV**

***"Bakı mətbəəsi"nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü***

Elşad Səfərli Azərbaycan poeziyasının və ədəbiyyatşünaslıq elmimizin tanınmış və istedadlı nümayəndələrindəndir. Onun zəngin poetik yaradıcılığı var. Maraqlı poemaları, könül oxşayan lirikası qədirbilən oxucular tərəfindən həmişə sevilib. Yeri gəlmişkən, elə bəri başdan onu da deyim ki, onunla uzaq illərdən bəri tanışlığımız dostluğa çevrilib. Aramızda sıx yaradıcılıq əlaqələri də yaranıb. Onun mənim həyatımı poetik formada qələmə alması da dərin təəssüratıma səbəb olub. Zənnimcə, onun "Qiymət" adlandırdığı həmin poeması çox uğurlu alınıb. Bu poemanın məziyyətləri haqqında yazıçı-publisist Sevda Əlibəyli, şair-publisist Əli Rza Xələfli və "Kredo" qəzetinin əməkdaşı Ceyhun Zallı maraqlı yazılar qələmə alıblar. Onun müəllif kimi obrazın taleyinə həssaslıqla yanaşması əsərin bir çox səhifələrini kövrəkliklə oxumağıma səbəb olub.

Elşad Səfərli həm də klassik ədəbiyyatımızın tədqiqatçısıdır. Onun xüsusilə Nizami yaradıcılığını tədqiq etməsi əslində bəşəri dəyərlərin böyük sənətkar tərəfindən uca tutulmasına verilən dəyərdir. Çünki Şeyx Nizami min illərin uzaqlığınacan işləyən baxışları ilə bəşərin taleyinə güzgü tutub. Ona görə də Nizami yaradıcılığını tədqiq etmək onun fikir və düşüncələrinin alt qatında yatan mənaları zaman-zaman açmaq, insanlığın mənəviyyat xəzinəsini zənginləşdirmək deməkdir. Bu baxımdan, Elşad Səfərlinin "Türkanə söz"ün misilsiz ustadı" monoqrafiyası (müəllif bu əsəri Ali məktəblər üçün dərs vəsaiti kimi nəşr etdirib) xüsusi maraq doğurur.

Məlumdur ki, prezidentin sərəncamı ilə 2021-ci il "Nizami ili" elan olunmuşdu. Bu da imkan vermişdi ki, söz sərraflarımız Nizami irsinə yenidən, yeni zamanın tələblərinə uyğun baxışlarla qayıtsınlar. Zənnimcə, Elşad Səfərlinin yenicə nəşr olunmuş "Türkanə söz"ün böyük ustadı" kitabı yeni yanaşma ilə Nizami irsinə orijinal baxışları ilə diqqəti cəlb edəcək.

Kitabın annotasiyası Nizami Gəncəvi irsinə müəllif münasibəti haqqında müxtəsər məlumat verir: *"Dərs vəsaitində dahi Azərbaycan şairi Nizami Gəncəvi Şərq intibahının korifey nümayəndəsi kimi diqqətə alınsa da, lakin onun zəngin irsi ümumbəşəri mahiyyətinə, əxlaqi-estetik, əqli-mənəvi və ictimai əhəmiyyətinə görə dünya intibahının tərkib hissəsi kimi tədqiq - təhlil müstəvisinə cəlb edilmişdir. Araşdırma prosesində bir qənaət də tam qətiləşdirilir ki, Nizaminin "Xəmsə"si və lirikası ümumbəşəri xarakterli, çoxşaxəli həyati və ictimai-siyasi problemləri, mövzuları özündə ehtiva edən rəngarəng, zəngin dünya əhəmiyyətli bir məxəzdir. Burada həm də Nizami əsərlərinin sənətkarlıq xüsusiyyətlərindən konkret bəhs açılır, onun sənət estetikasının mükəmməliyində məcazlar sisteminin rolu, həmçinin bədii irsinin tədrisi məsələlərinə toxunulmuşdur. Bu irsin bəzi mübahisəli təhlil - tədqiq məqamlarına yeni baxış nümayişi əsərin orijinallıq göstəricisidir. Əsər mütəxəssis filoloq və tələbə heyəti ilə yanaşı, elmi-kütləvi nəşr kimi geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur"*. Ancaq mən kitabı diqqətlə oxuduqca, bir-birindən maraqlı səhifələri çevirdikcə belə qənaətə gəldim ki, bu kitab təkcə dərs vəsaiti deyil, bütövlükdə Azərbaycan mənəvi mühitini zənginləşdirən çox dəyərli ədəbi qaynaqdır. *"Türkanə söz"ün misilsiz ustadı"* kitabı 3 fəsildən ibarətdir.

Birinci fəsil *"Nizami Gəncəvi irsinin bəzi sənətkarlıq xüsusiyyətləri"* adlanır. Müəllif bu fəsildə, demək olar ki, indiyə qədərki tədqiqatların diqqətindən kənarda qalmış məqamlara işıq salır. Elə yazısının əvvəlindəcə Nizaminin dünya mənəvi mühitindəki yerini göstərməsi onun mövzuya necə əhatəli yanaşdığına sübutdur: *"Dünya söz sənətinə təkrarolunmaz zəngin bədii irs bəxş edən böyük söz korifeyi Nizami Gəncəvi yaradıcılığı həm də özündən sonrakı ədəbi nəsil üçün nümunə və ənənələr mənbəyidir. Bunun nəticəsidir ki, Şərq və qismən də Avropa ədəbiyyatının ən böyük söz ustadları onun bədii irsindən həmişə yaradıcı ruhda təsirlənmiş, hətta bəzilərinin yaradıcılığı mütəfəkkir şairin ənənə daşıyıcı xarakterində olmuş, onların əksəriyyəti bu ənənənin davamçılarına çevrilmişlər. "Türkanə söz"ün misilsiz ustadı N.Gəncəvi bəşəri poeziyanın ölməz söz incilərini yaratmış və mütərəqqi sivil ədəbiyyatlar bu incilərdən bəhrələnməkdədir. Çünki bu cahanşümul öz məxəzinin poetik sistemi təqlid edilməsi mümkünsüz olduğu qədər də gələcək nəsillərin əxlaqi-etik, estetik tərbiyəsində misilsiz təsirə sahibdir"*. Əlbəttə, müəllif Nizami irsini tədqiq etməyin çətinliyini də yaxşı bilir. Göründüyü kimi bunu elə yazının əvəlindəcə etiraf edir. Ancaq, hər halda, o, gələcək nəsillər üçün Nizami tədqiqlərinin necə böyük əhəmiyyət daşıdığını yaxşı bilir və bəlkə, elə bu səbəbdən də hər cür cəfaya dözərək Nizami irsinin *"gizlinlərinə"* yol açmağı qarşısına məqsəd qoyur.

Məlumdur ki, Nizami Gəncəvi yaradıcılığı dünya ədəbiyyatı müstəvisində tədqiqatı heç vaxt başa çatmayacaq bir okeana bənzəyir. Bu mənəviyyat okeanının dərinlikərində yatıb qalan məna incilərinin üzərindən sirr pərdəsini götürməklə insanlığın anlaşma yollarını da göstərmək mümkün olardı. Elə bu məqsədə xidmət edən tədqiqatları ilə çox mürəkkəb bir aləmə yol açır Elşad Səfərli. Və özü bu mərəmi oxucu diqqətinə çəkməklə monoqrafiyada oxucunu gözləyən surprizlərə işarə edir: *"N.Gəncəvinin söz sistemi olduqca mürəkkəb və çoxşaxəlidir. Bu sistemin hər gizli qatında, şaxələrində ədəbiyyat dünyası üçün yeni, novator olan mühüm ümummaraq səviyyəsində dura biləcək sənət prinsiplərini aşkarlamaq mümkündür. Bu mənada bu irsin tam "faş edilməyən", bəşər nəslinin mənəvi-estetik xidmətinə hələ miqdarınca çatdırılmayan çox cəhətləri mövcuddur. Müasir ədəbiyyatşünaslığın bu gün üçün ən prioritet vəzifələrindən biri məhz Nizami irsinin bu "gizlinlərini" də açmaq və bunu nizamisevərlərin mənəviəqli istifadəsinə verməkdən ibarətdir"*. Nizami irsi ilə tanış olan hər kəs Elşad Səfərlinin maraqlı düşüncə qənaətlərinə şərik ola bilər. Çünki Nizaminin zəngin irsində səmavi kitablardan tutmuş Nizaminin özünə qədərki həm elmi, həm də bədii irsin ən dəyərli elementlərindən istifadə olunub. Bəzən bizim üçün müəmmalı görünən hər hansı bir mətləbin mahiyyəti həmin mənbələrdə gizlənmiş olur. Əslində Nizami irsini öyrənməklə Nizamiyə qədərki mənəvi mühitin yaratdıqlarını da öyrənmiş oluruq.

Nizami Gəncəvi Elşad Səfərlinin qeyd etdiyi kimi sözü ruhun motivi kimi görürdü. Yalnız o söz qəlbləri titrətmək gücündədir ki, ruhları oyatmaq qüdrətinə sahibdir. İnsanlar həmişə ruh haqqında düşünüblər. Qədim yunan alimləri, Misir kahinləri ruhu müxtəlif tərəflərdən şərh etməyə çalışıblar. Hətta Hegelin *"Ruhun fəlsəfəsi"* adlı əsəri bu gün də maraqla oxunmaqdadır. Nizami Gəncəvi də ruhun ölməzliyini iddia edir. Bu ölməzliyin arxasında dayanan həqiqəti insan əməlinin yaşarlığı ilə bağlayırdı. Elşad Səfərli tədqiqatında bu məqamlara xüsusi önəm verir: *"Uca rütbəli sözü əyləncəyə çevirənlərdən, sözün sikkəsinə haram qatanlardan qorumağa çalışdı. Sözü layiq olduğu ən uca mərtəbəyə sakin etdi. "Əsil bədii sözün təzahürünü idealist amillərlə bağlayan Nizami insan ruhunun ölməzliyini və insanlar arasındakı dini, irqi fərqlərin sərhədini qıran, onların ülfət, ünsiyyət birliyini təmin edən sözün demiurq qüdrətini də bu bağlantıda görürdü.Nizami poeziyası yaşadığı dövr və özündən sonrakı Azərbaycan poeziyası üçün böyük mədəniyyət, ümumiyyətlə, böyük hərflərlə yazılası əsil renessans hadisəsidir. Elə bir hadisə ki, burada bütün Azərbaycan xalqının arzu, istəyi, hiss dünyası, düşüncəsi, əzmkarlığı, mübarizliyi, vətən sevgisi, iztirab və keşməkeşləri əbədiləşdi. Nizami irsi Azərbaycan xalqının uzun, məşəqqətli dövrünün ədəbi-bədii və mənəvi ensiklopediyasıdır ki, bir parlaq güzgü kimi onda hər şeyi görmək mümkündür. Millətin, xalqın taleyi, bədii qüdrəti ilə yanaşı, bu poeziyada onun bəşəri, elmi düşüncəsi də əksini tapa bilmişdir. Məhz buna görə də bu irs Qərb-Şərq kontekstini özündə ehtiva edən dünya renessansının tərkib hissəsidir"*. Nizami irsi Elşad Səfərlinin tədqiqatları ilə təsdiq etdiyi kimi bəşər nəslinin nəyə qadir olduğunu tərənnüm edir.

İstər ədəbiyyat tariximizi araşdıranlar, istərsə də bədii söz ustaları Nizaminin özlərinin ustadı hesab ediblər. Onun yaradıcılığının görünən və görünməyən tərəflərinə nüfuz etməklə dünya və insan sirrlərinə vaqif olmağa çalışıblar. Bu mənada görkəmli istiqlal şairimiz Xəlil Rzanın mülahizələrini Elşad Səfərli diqqətə çəkir: *"Azərbaycanın böyük söz simalarından biri, xalq şairi Xəlil Rza N.Gəncəvini qüdrətli şair kimi belə səciyyələndirirdi: "Maraqlıdır ki, ömrü boyu yalnız şairlik etmiş Nizami hətta böyük hərflərlə yazdığımız "ŞAİR" sözünə sığmır, adı hər dəfə çəkiləndə fəlsəfə, astronomiya, hüquq, təbabət tarixi, dilçilik, etnoqrafiya kimi elm sahələrinin mahir bilicisi epitetlərini sanki bizdən tələb edir. Görünür, böyüklüyü də elə bundadır ki, saydığımız və saymadığımız epitetlərin hamısını o, bircə "ŞAİR" anlayışına sığdıra bilmiş və bu kəlməyə o vaxtacan misli görünməmiş mündəricə və məna, şərəf və ləyaqət nuru gətirməyi bacarmışdır"*. Min illərdir ki, şairliyin ölçü və meyarları mübahisəlidir. Nizami əsərlərindən göründüyü kimi bu mübahisələr elə onun da zamanında olub. Bədii söz ustadları kimin daha üstün şair olduğu haqqında mübahisələrə girişiblər. Xəlil Rzanın da qeydlərindən göründüyü kimi, elə Nizami Gəncəvi də belə mübahisələrin mərkəzində olub. O, şeiri və şairliyi Allah nizamının bəhrəsi kimi görürdü. Məlumdur ki, Nizmai şeiri, poeziyanı, şairliyi əlçatmaz zirvəyə qaldırmış və elə bu səbəbdən də hətta oğluna şairliyin Nizami ilə qurtardığını da bildirmişdir.

Elşad Səfərli doğru qeyd edir. Nizami öz epoxasının səsi idi. Onun *"Sirlər xəzinəsi"*ndən başlayaraq iri həcmlimənzum romanları ən müxtəlif zümrədən olan insan mənzərələrinin orijinal və bənzərsiz təsvirlərindən ibarətdir. Elşad Səfərli Axundovun mülahizələrini də yada salır: *"Yeri gəlmişkən, M.F.Axundzadənin məddah, xalqın mənafeyini özünün mənafeyinə, madii maraqlarına qurban verən iranlı Sürüş kimi şairləri kaskin tənqid etməsi bəlkə də Nizami sözünün təsirinin nəticəsidir"*. Hətta məlumdur ki, Mirzə Fətəli Məhəmmədəli Sürüş haqqında onun ucuz düşüncələrini qiymətləndirən belə bir ifadə də işlədib: Evin yıxılsın, Məhəmmədəli Sürüş.

Tədqiqatçı-alim Nizaminin möhtəşəm *"Xəmsə"*sini vəlirikasını incələyərkən bu yaradıcılıq aləminin okean dalğaları kimi insanlığa necə təsir etdiyini göstərir: *"Nizami Gəncəvi "Xəmsə"si və ayrılıqda lirikası ümumbəşəri xarakterli çoxşaxəli həyati və ictimai-siyasi problemləri, mövzuları özündə birləşdirən rəngarəng, zəngin bir məxəzdir. Adi məişət qayğılarından tutmuş dünyəvi, hətta əbədi həyat problemlərinə qədər məsələlər bu mütəfəkkiri ömrü boyu düşündürmüş və bunlar onun ölməz söz abidəsində yüksək sənət meyarları çərçivəsində özbədii həllini tapmışıdır"*. Nə qədər insanlıq var, insanın qayğıları da var. Nizami Gəncəvinin irsi həm də ona görə dəyərlidir ki, bu günkü insanın problemlərini, qayğılarını da onun yaradıcılığında görmək mümkündür. Hətta Azərbaycan cümhuriyyətinin banilərindən biri M.Ə.Rəsulzadə də Nizami irsini məhz həm də müasirliyinə görə tədqiq etmişdir. Və Elşad Səfərli də tədqiqatında Rəsulzadənin Nizami irsinə münasibətini unutmur: *"Məhz elə "Xəmsə"nin yüksək sənətkarlığı ilə bağlı M.Ə.Rəsulzadənin çox maraqlı bir fikri diqqətçəkəndir: "Misilsiz bir şair olan gəncəli Nizami, sonralar "Pənc-gənc"... məsnəvisi ilə sələflərini ötüb keçərək... əvvəlki şairləri az qala unutmurduşdur". Bu konkret, olduqca məzmunlu və maraqlı sitata öz qənaətimizi də əlavə etməyi məqamına görə münasib hesab edirik: "Nizamidən sonra gələnlərdən də heç biri onun "Xəmsə"sinə daxil olan poemalarından heç birini "kölgədə" qoya biləcək elə bir əsər yaza bilmədilər. Təkcə "qəlb şairi" Füzuli "Leyli və Məcnun" poemasını fərqli, yüksək meyarlar səviyyəsində yazdı, lakin o, bu poeması ilə, nə qədər böyük sənətkarlıqla yazsa da, Nizamini üstələyə bilmədi, sadəcə, ustalıqla bir mərtəbədə, onunla yanaşı durmağı bacardı"*. Sözün həqiqi mənasında Nizami Gəncəvi yaradıcılığını tədqiq edən əsərlər dünya kitab mədəniyyətinin ən zəngin xəzinəsini yaradıb. Nizami haqqında yazılanlar dünyanın ölçüyə gəlməz bir kitabxanasıdır. Ancaq bu nəhəng kitabxananın ən dəyərli incilərindən biri Elşad Səfərlinin yada saldığı Rəsulzadənin əsəridir. Şübhəsiz, Nizami yolunun davamçısı kimi qüdrətli şairlər də yetişib. Əlbəttə, bu sırada Füzulini də, Nəvaini də unuda bilmərik. Elşad Səfərlinin də haqlı olaraq dediyi kimi *"Nizami romantik metod çərçivəsində normativ üslub meyarları ilə yazıb-yaratsa da, lakin onun yaradıcılığı özünəməxsus, novator ənənələrin sintezində ərsəyə gələn misilsiz sənət nümunəsidir"*. Dövrümüzün ziddiyyətləri çoxdur. Azərbaycanı gücsüz hesab edəngüc sahiblərinə mən də demək istərdim ki, Nizami kimi bir dühanı yetirən xalq gücsüz ola bilməz.

Elə Elşad Səfərlinin tədqiqatı da bu qənaəti əsaslandırır.

***(Davamı 11-ci səhifədə)***

# ELŞAD SƏFƏRLİNİN "TÜRKANƏ SÖZ"Ü

*(Əvvəli 10-cu səhifədə)*

Nizami yaradıcılığı o qədər zəngin bir aləmdir ki, bəlkə də, bütöv ədəbi mühitin özünün də bir ömürlük vaxtı çatmazdı, onu axıracan tədqiq etməyə. Çünki Nizami irsinin bütün istiqamətlərinə diqqət yetirəndə dövrün iqtisadi həyatı, siyasi mühiti, mənəvi yüksəlişi təkcə Azərbaycanın yox, elə bütövlükdə Azərbaycana qonşu olan ərazilərin, eyni zamanda bütün Şərqin mənzərəsi haqqında dolğun təsəvvür əldə etmək olur. Elə bu günün siyasətçiləri də, hərb xadimləri də, hüquqşünaslar da Nizami irsindən kifayət qədər faydalana bilərlər. Təsadüfi deyil ki, Nizami bütün zamanlar üçün müasir hesab olunur. Bunu tədqiqatçı Elşad Səfərli də elə Nizaminin öz sözlərinə istinadla təsdiq edir:

*Yüz il sonra sorsan, bəs o hardadır,*
*Hər beyti səslənər "burda, burdadır!".*

Nizami irsinin qüdrəti də, bütün zamanlarda insanların düşüncəsinə təsir etmək gücü də bu beytdə Nizaminin öz dili ilə ehtiva olunub. Şübhəsiz, Nizami yaratdıqlarının qüdrətini yaxşı bilirdi, elə ona görə də gələcək zamanlarda da əsərlərinin yaşarlığına inanırdı.

Şübhəsiz, Nizami irsini qərəzsiz tədqiq edən qeyri xalqların Nizamişünasları da onun əbədiyaşarlıq gücün etiraf edirdilər və onu öz mühitindən ayırmırdılar. Təəssüf ki, Azərbaycan xalqının, xüsusilə türk xalqlarının qərəzkarları Nizamini mühitindən ayırmağa, onun qeyri türk obrazını yaratmağa cəhdlər göstəriblər.

Sözün həqiqi mənasında Elşad Səfərli Nizami qərəzkarlarına bu əsəri ilə çox tutarlı bir cavab verir və Nizamini türkanə sözün böyük ustadı hesab edir. Zənnimcə, Elşad Səfərlinin tədqiqatına belə bir ad verməsi xüsusilə təqdir olunmalıdı.

Nizami Azərbaycanda mənəvi yüksəliş dövrünün övladıdır. Nizami dövrünü tədqiqatçılar Azərbaycan intibahı ilə xarakterizə edirlər.

Tədqiqatçı Mikayıl Rəfili təsadüfi olaraq Nizami dövrünü *"parlaq epoxa"* adlandırmırdı. O, bu ifadə altında Azərbaycanın siyasi-iqtisadi, mənəvi yüksəlişini nəzərdə tuturdu. Şübhəsiz, bunu qərəzkarlar da yaxşı bilirlər. Ancaq onlar Nizami dövrünü Azərbaycan intibahı kimi xarakterizə etmirlər. Bunda da məqsəd odur ki, Nizami kimi qüdrətli bir simanı yetirən mühiti başqa ərazilərdə axtarsınlar. Hər halda Nizaminin milli kimliyinə, onun hansı torpaqda böyüdüyünə qərəzli münasibətlə şübhə toxumu səpmək istəyiblər. Elşad Səfərli yazır: *"Nizami irsinin bütün zamanlar üçün ən böyük əhəmiyyəti nəinki intibah ideyaları ilə bağlılığından, həm də, ümumiyyətlə, intibahın Azərbaycan tarixində bir mərhələ kimi mövcud olmasını ümumbəşəri dəyərlərə malik əsərləri ilə isbatlamasındadır. Hansı ki, bu tarixi prosesin Azərbaycandan da yan keçməməsi faktını nəinki bəzi uzaq xarici ölkə ədəbiyyatşünasları, hətta sərhəd baxımından yaxın hesab etdiyimiz ölkənin üzdəniraq alimləri də şübhə altına alırdılar. Bunların sırasında gürcü Ş.Nutsubidze, Q.Z.Apresyan kimilər canfəşanlıq göstərirdilər"*. Göründüyü kimi Elşad Səfərli qərəzli tədqiqatçıların mövqeyini kifayət qədər aydınlığı ilə oxucuya çatdırır.

Demək, milli qərəzkarlarımız 12-ci əsrdə Azərbaycan intibahı məsələsini yaxına qoymurlar. Onlar Azərbaycan intibahını inkar edir, ən yaxşı halda həmin dövrü mədəni inkişaf mərhələsi kimi xarakterizə edirlər.

12-ci əsr Azərbaycanın siyasi tarixində dövlətçiliyin qüdrətli sütunlarının çoxdan başa çatdığı bir zamanda Azərbaycan atabəyləri hakimiyyətdə idilər. Həmin dövrdə Azərbaycan türkcəsi əsas ünsiyyət vasitəsi idi. Şübhəsiz, fars işğallarının təsiri altında poeziyada fars dili hakim idi. Elə hökmdarlar da, baxmayaraq ki, sarayda danışıq dili Azərbaycan türkcəsi idi, şairlərdən tərənnüm əsərlərini fars dilində qəbul edirdilər. Nizami məhz belə bir dövrdə yaşadığı üçün türkanə sözün şöhrətini fars dilində göstərməyə məcbur olmuşdur.

Erməni tədqiqatçıları türkanə sözün mahiyyətini kölgədə qoymağa cəhdlər göstərir və bu yöndə Q.Z.Apresyan daha çox fəaldır. Elşad Səfərli isə ona tutarlı cavab verir: *"Onlar Azərbaycan intibahı haqqında əsassız mülahizələr irəli sürür və bu mütərəqqi "dirçəliş" prosesini xalqımızın tarixindən kənarda tuturdular. Xüsusən, Q.Z.Apresyan hətta bəzi sovet alimləri tərəfindən də müdafiə edilən Azərbaycan intibahını kölgələməyə çalışır, daha çox intibahı Zaqafqaziyada Gürcüstan və Ermənistanla bağlayırdı. Azərbaycanla bağlı isə bu prosesi müəyyən qədər "mədəni inkişaf" aktı kimi qələmə verirdi. Guya Azərbaycanın öz antik dövrü olmadığı üçün bu ölkədə intibah da ola bilməzdi kimi sərsəm, əsassız fikirlər irəli sürürdü. Maraqlısı budur ki, o, yalnız intibaha xas bəzi cəhətlərin Nizami yaradıcılığında mövcudluğuna - buna da çox qısqanclıqla, paxıllıqla, istəmədən işarə vururdu"*. Tanış mənzərədir. Onsuz da ermənilər elə bu gün də qara niyyətlərini davam etdirməkdədirlər. Hətta vaxtı ilə Moskvada nəşr olunan kitablarda da Şirini - Nizaminin böyük qadın qəhrəmanını erməni şəhzadəsi kimi təqdim edirdilər.

Qərəzli mövqe onsuz da, tez-gec hər kəsə məlum olur. Çünki erməni tədqiqatçılarının Azərbaycan türklərinə münasibəti kifayət qədər açıqdır: *"Nizami Gəncəvi irsi intibah məsələsində erməni-xristian təəssübkeşliyinə, "közü yalnız öz qabağına" aludəçilərinə böyük zərbə nümunəsidir. Azərbaycanın ideoloji düşmənlərini bəşəri poeziya faktı ilə sarsıtmaq vasitəsidir"*. Şübhəsiz, erməni xisləti son nəticədə məqsədinə çatmayacaq. Azərbaycanın mənəvi mühitinə nə qədər zərər vururlar, vursunlar, sağlam düşüncə son nəticədə qalib gəlməlidir.

Azərbaycan xalqının tarixi taleyində Nizami irsinin hədsiz əhəmiyyəti var. Nizami həm də Azərbaycan xalqının ideoloji xəzinəsidir. Bu ideoloji xəzinəni talamaqla, onu yad meyillərə yönəltməklə əsaslı heç nəyə nail olmaq mümkün deyil. Çünki dünyanın nüfuzlu tədqiqatçıları Nizami irsinin mənəvi köklərini yalnız Azərbaycanda görürlər. Əlbəttə, Nizami irsi bəşəri mahiyyət daşıdığı kimi həm də möhtəşəm Şərq irsidir və onu öz aləmindən ayırmaq mümkün deyil. Elşad Səfərli tədqiqatında bu məqamları çox sərrastlıqla əsaslandırır: *"Nizami yaradıcılığı olmasaydı, ideoloji cəbhədə düşmən təəssübkeşlərlə mübarizədə çətinliklərlə qarşılaşa biləcəyimizi belə də təsəvvür etmək çətin deyil. Bax, bu mənada Gəncəvinin poeziyası Azərbaycan intibahını dünyada bərqərar edən, tanıdan, onun ölkəmizdə tarixi bir mərhələ kimi varlığına şübhə ilə yanaşanların düşüncəsini sındıran, tar-mar edən möcüzəli bir məxəzdir. Bu zəngin məxəz həm də Nizaminin dünya intibahında mövqeyini müəyyənləşdirməyə ciddi əsas verir. Özgə din təəssübkeşləri belə onu etiraf etmək məcburiyyətində qalırlar. Bu mənada N.İ.Konradın intibah məsələsində Nizamiyə münasibəti təqdirəlayiqdir. Belə ki, Şərq intibahı məsələsinə tədqiqatlarında geniş yer verən müəllifin "Orta Şərq intibahı və Əlişir Nəvai" məqaləsindəki Nəvai "Xəmsə"sinin son səhifələrinin birində verilmiş təsvir əsasında yazdığı bir qeydi xüsusi diqqət çəkir. Qeyd olunur ki, "Gözəl bir bağda Nizami, Əmir Xosrov və Cami ilə qarşılaşdığı təsvir edilir. Təsvirdə Nizami ortada dayanmış, Firdovsi, Nasir Xosrov, Ənvəri, Xaqani, Sədi və Şərqin digər korifey şairləri onun arxasında dayanmışlar"*. Düzdür, Konrad Nizaminin mərkəzdə durmasını onun ilk *"Xəmsə"* müəllifi olması ilə əlaqələndirir". Bu mətnin içərisinə yığılmış məna və mahiyyəti açmalı olsaq, sözümüz daha çox şaxələnə bilər. Elşad Səfərlinin də sadaladığı adların sırasında Nizaminin mərkəzdə olması belə bir həqiqəti əks etdirir; bu fakt onun özündən əvvəlki və sonrakı mərhələlərdə meydana çıxmış söz cəngavərlərini bir araya gətirmək gücünü göstərir.

Azərbaycan tədqiqatçıları Nizamişünaslığın ən gözəl və mötəbər səhifələrini yaratmışlar. Bu sırada ən görkəmli Nizamişünaslardan biri Xəlil Yusiflidir.

Professor Xəlil Yusiflinin Nizami ilə bağlı qənaətlərini elə bu səbəbdən qabağa çəkir və qabarıq göstərir: *"Nizami lirikasının və onun intibah ideyalarının tədqiqatçısı prof. Xəlil Yusiflinin "Şərqdə intibah və Nizami Gəncəvi" monoqrafiyasında bu barədə qeydi çox maraqlıdır. Müəllif yazır... "göstərilən sənətkarların çoxunun "Xəmsə" yaratmaqla əlaqəsi yoxdur. Fikrimizcə, Nəvai Nizamini təkcə ilk "Xəmsə" yaratdığına yox, bəlkə də daha mühüm səbəblərə görə mərkəzdə təsvir edir, onlarla dahi sənətkarlar yetişdirən Yaxın və Orta Şərq intibahında onun yerini müəyyənləşdirir". Düşünürük ki, X.Yusifli bu mülahizəsində tamamilə haqlıdır. Nəvaidən bu cür yanaşma Azərbaycan xalqı üçün olduqca qürurverici olması ilə yanaşı, faktın özü də yuxarıda adları sadalanan korifeylərdən Nizaminin daha qüdrətli bir sənətkar, onların sırasında birinci olduğunun aşkar sübutudur"*. Elşad Səfərlinin bu tədqiqatı təkcə böyük zəhmətin, ardıcıl, inadlı araşdırmanın nəticəsi deyil, həm də onun Nizami irsinə sonsuz sevgisinin bəhrəsidir. Yeri gəldikcə, Elşad Səfərli Nizami yolunun sanki böyük bir xiyaban olduğunu görür və bu xiyabanda kimlərin Nizamidən bəhrələnməsini və eyni zamanda Nizami irsinə böyük sevgi bəslədiyini göstərməklə Nizami irsinin Azərbaycan-türk mənəvi mühitinin bəhrəsi olduğuna diqqətini yönəldir.

Yuxarıda qeyd etdik ki, Nizami irsi hətta bu günün siyasətçiləri üçün də qiymətli mənbədir. Çünki Nizami böyük insanpərvər şair idi. Onun humanizm ideyalarını qanadlı bir ilhamla tərənnüm etməsinin əsas səbəbi insanı uca tutması ilə bağlıdır. Nizami yaşadığı zamanda və gələcəkdə də dünyanı insanı qoruyan bir nizamda görmək istəyirdi. Onun ədalətli şah arzusu da, xoşbəxtlər ölkəsi haqqında düşüncələri də elə Nizaminin insanla bağlı məramının müqəddəsliyindən irəli gəlirdi: *"Onun ədalətli şah və bərabər xoşbəxt cəmiyyət arzusunu özündə ehtiva edən "sosial utopiyası" da elə bu humanizmdən qaynaqlanırdı. "Xəmsə"sində xəlqilik, ictimailik, beynəlmiləlçilik və bəşərilik kimi ideya komponentlərini özündə vəhdət şəklində ehtiva etdiyindəndir ki, ondan sonrakı mütəfəkkirlər: T.Mor, T.Kompanellodan fərqli olaraq "Dünya, kainat, ulduzlar və s. haqqında maraqlı fikirlər söyləyən Nizami ideal cəmiyyət arzusunu da fərqli utopik mahiyyətdə ifadə edə bilmişdir. Hansı ki, həmin cəmiyyətdə nə əzab verən var, nə də əzab çəkən yoxdur. İnsanlar xoşbəxtdir və əmin-amanlıq içərisində yaşayır". Məhz bu yaradıcılığın çoxkomponentli humanizm xarakterindən çıxış edərək Nizami yaradıcılığının araşdırıcılarından biri, professor Azadə Rüstəmova eyni aspektli fikrimizin bir növ davamı kimi yazırdı: "Humanizm ideyaları XII əsr Azərbaycan ədəbiyyatında öz yeni böyük təntənəsini Nizami sənətində tapdı, fəlsəfi tutum olaraq əlvan rəng çalarları ilə Nizami yaradıcılığının ümumi pafosuna, hərəkətverici qüvvəsinə çevrildi. Şərq ictimai-bədii fikir tarixi Nizaminin şəxsində Avropa intibahının qabaqcıl nümayəndələrinin humanist görüşlərini belə bir neçə əsr qabaqladı. XII əsr Azərbaycan şairinin səsinə Avropa yalnız XIV-XV əsrlərdə səs verdi"*. Elşad Səfərlinin qənaətincə, bu *"səsvermə"* dünya Nizamişünaslarının, eyni zamanda Avropa şərqşünaslarının böyük Nizami dühası qarşısında etirafı idi.

Elşad Səfərli görkəmli Nizamişünas Azərbaycan alimlərinin qənaətlərinə kifayət qədər geniş yer verir. Əkbər Ağayevin, Xəlil Yusiflinin, Həmid Araslının, Azadə Rüstəmovanın, Rüstəm Əliyevin, M.Ə.Rəsulzadənin... və başqalarının Nizami irsi ilə bağlı qənaətlərini maraqlı ümumiləşdirmələrlə tədqiqatına cəlb edir.

Nizami Gəncəvinin qəhrəmanları demək olar ki, bütün əsərlərində real insanlardır. Onların həyati qayğıları, düşüncələri, hətta siyasi xadim olan obazları bu günün insanları üçün də maraqlıdır, cəlbedicidir. Elşad Səfərli məxsusi olaraq bu məqamları da öz əsərində oxucu marağın cəlb edəcək səviyyədə yazıya gətirir: *"Nizami irsində qəhrəmanların, hökmdarların, sadə zəhmətkeş insanların xarakter xüsusiyyətlərinin daha qabarıq verilməsində, zülmə, istismara qarşı mübarizədə mənfi surətlərin karikaturalarına, portretlərinə güclü ifşaçı pafosun əlavə edilməsində bədii təsvir və ifadə vasitələrinin çox mühüm üslubi rolu vardır. Burada təkcə metaforlar yox, həmçinin, epitetlər, təşbehlər, mübaliğələr, metonomiyalar, təkrirlər, təzadlar və digər məcaz növləri, poetik fiqurlar və ifadə vasitələri şairin obrazlı deyim, inikas prosesində çox əhəmiyyətli vasitəyə çevrilir. Əsərlərin emosional-ekspressiv təsir gücünün artmasında, oxucu üçün ideya-məzmunun qavranılmasında, mənimsənilməsində, gizli sətiraltı mətnin dərkində bir növ əvəzsiz yardımçısı olur, bütün diqqətini böyük maraq kəsb edən hədəfə istiqamətləndirir. Misralarda gözlənilməz yeni qafiyələrdən istifadə, sətirlərarası fasilənin gözlənilməsi, mövzuya uyğun bölgülərin qurulması, ədəbi nözlərin düzgün müəyyənləşdirilməsi, ritmin, intonasiyanın ifadənin rəvan səslənməsinə, oxunmasına xidmət etməsi oxucunun yorulmasına imkan yeri qoymur, əksinə, onun intizarını, marağını daha da artırır. Bunun əsas şərti isə yeknəsəqlik deyilən anlayışın şairin yaradıcılıq tərzinə tamamilə yabançı olmasındadır"*. Tədqiqatçı doğru deyir. Nizaminin yaradıcılığı könülləri işıqlandıracaq gücdədir. Onun zəngin irsindən müxtəlif yaşlarda olan bu günün adamları - qoca, cavan, gənc, hətta uşaqlar belə paylarını ala bilərlər.

Nizami yaradıcılığı bu günün gəncləri üçün də ən dəyərli dərslik ola bilək gücündədir. Elşad Səfərlinin tədqiqatı məhz Nizami irsinin həyatiliyinə diqqəti yönəldir.

***11.03.2022***

**(Davamı var)**